UNEC

**Azərbaycan Dövlət İqtisad Universiteti(UNEC)**

# "QRAFİK DİZAYN PROQRAMLARI"

**fənni üzrə İŞÇİ**

**TƏDRİSPROQRAMI**

**(Sillabus)**

**Əsas dərslik və dərs vəsaitləri**

**Əsas ədəbiyyat:**


1. Jens Muller « Logo Modernism »,, 2015
2. Robert Bringhurst « The Elements of Typographic Style »,,2013
3. Richard Lynch «The Adobe Photoshop layers book: harnessing Photoshop's mostpowerful tool, covers Photoshop»,,2007
4. Лесняк В. Графический дизайн (основы профессии). ИндексМаркет, 2011
5. Панкратова А. История графического дизайна и его использование в рекламе. –Смоленск, 2010.


**Əlavə ədəbiyyat:**


1. https://www.pixpa.com/blog/graphic-design-software
2. https://www.creativebloq.com/graphic-design/free-graphic-design-software
3. **https://blog.hubspot.com/marketing/best-free-graphic-design-software**
4. **enderforest.com/ru/blog/graphic-design-software**


**Fənnin təsviri**

Bu fənn, seçmə fənnlər siyahısına daxil olmaqla, bakalavr pilləsində təhsil alan tələbələrə peşə qəbilli xüsusi predmet kimi vacibdir və fənn qrafik dizaynın növlərini və proqramlarını, qrafikaçı illüstrator kimi mövzuları əhatə edir, Qrafikanın işlənmə texnikaları, proqramlarla işlənən qrafik dizayn məhsulları öyrənilir. Həmçinin tələbənin həcmi təsəvvürü, fantaziyası, gözəllik hissi, bədii zövqü inkişaf etdirilir. Qrafik dizayn sahəsində keyfiyyətli və ixtisaslı mütəxəssislərin  hazırlanmasına kömək edir.

**Fənnin məqsədi və vəzifələri**

Müasir dövrün ayrılmaz hissəsi olan vizuallığın, yüngül sənaye sahələrinin və bilavasitə iqtisadiyyatın inkişafında rolu danılmazdır. Fənnin əsas məqsədi vizuallığın bir simvolu olan qrafik dizayn və onun proqramlarının ətraflı öyrənilməsidir. Qrafik dizayn – bədii olmaqla yanaşı, iqtisadi, mədəni, industrial əhəmiyyət daşıyır, ornament və naxış kimi növləri ilə də, millilik xüsusiyyətlərini əks etdirir. İnteryer və eksteryerdə, geyim və məişət əşyalarında, reklam və ticarət nişanlarında, qrafik sənət nümunələrində, layihə eskizlərində, kompüter qrafikasında, saytların tərtibatında, reklam çarxları və plakatlarında, iri həcmli qrafik təsvirlərdən

- kiçik naxışlara və qrafik işarələrə qədər rast gəldiyimiz nümunələri ilə - qrafik dizayn hər zaman aktualdır. Bu fənnin mənimsənilməsi bir tərəfdən gələcək mütəxəssislərin bədii zövqünü formalaşdırır, digər tərəfdən peşəkarlıq qabiliyyətini inkişaf etdirir.

Fənnin tədrisi qarşısında duran vəzifələr aşağıdakılardır:

- Qrafik dizayn və onun növləri haqqında əsas məlumatlar əldə etmək;
- Qrafik dizayn proqramları , Adobe Photoshop, Adobe Illustrator, Ado be I n DesignCor elDr aw ilə tanış olmaq;
- Məşğələ dərsləri qrafikaçı dizaynerlərin mənimsəməli olduqları bütün faydalı və zəruri bilik və bacarıqlara yiyələnməni təmin edir, onları savadlı kadr hazırlığı, müvafiq sahələrdə məhsuldar işləmələri üçün hazırlayır.s

**Fənnin tədris metodologiyası**

Qarşıya qoyulmuş məqsəd və nailiyyətləri əldə etmək üçün aşağıdakı tədris metodologiyasından istifadə olunur:

- *Şifahi (təqdimat, müzakirə);*
- *Əyani (video fayllar,reproduksiyalar, kitablar );*
- *Təcrübi;*
- *Emosional (müxtəlif assosiasiyaların, bədii obrazların təhlili).*

Bu fənnin tədrisi prosesində interaktiv müzakirələrin aparılması, komanda şəklində layihələrin icrası, kiçik qruplarda iş, xüsusi nümunələrin (keys-stadilər) öyrənilməsi və təhlili, sərbəst işlərin layihə şəkilində yerinə yetirilməsi kimi geniş çeşiddə tədris və təlim üsullarından istifadə edilir.

Bundan əlavə tədris və təlim prosesində xarici və yerli ədəbiyyatdan, habelə beynəlxalq və yerli mediadan (internet resurslarından) götürülmüş məqalələrin, real nümunələrin və xüsusi

keyslərin təhlilinə, müzakirəsinə və məntiqi nəticələr çıxarılmasına xüsusi diqqət ayrılacaq. Verilən biliklərin tətbiqi bacarıqlarının formalaşdırılması üçün tələbələr mövzuya uyğun seçilmiş tapşırıqları həll edəcəklər.

**Öyrənmənin nəticələri:**

Qrafikaçı – dizaynerlərin bilməsi zəruri olan nəzəri və praktiki bilikləri əhatə edən bu kursun nəticəsi – tələbələrin mütəxəssis dizayner kimi yetişdirilməsinə, bədii qrafikanın əhatə etdiyi sahələr üzrə müstəqil şəkildə fəaliyyət göstərməsinə xidmət edir. Kursu bitirən tələbələr "Qrafik dizayn proqramları" fənnini mənimsəyərək, qrafika sahəsində ənənəvi və müasir üsul və bacarıqlara yiyələnir.

Kursun tədrisi başa çatandan və bütün mövzular mənimsənildikdən sonra tələbələr:

**Bilməlidirlər:**

- Qrafik dizaynın növlərini, sahələri və məhsulları, qrafik dizayn proqramları, illüstrasiya haqqında təsəvvürləri olmalı;
- Üzərində çalışılan hər növ dizayn məhsuluna qoyulan əsas tələbləriSosial medianın önəmi və onlar üçün hazırlanan postların reklam sahəsinə qrafik dizaynın inkişafı üçün strategiyanın əhəmiyyətini anlamalıdırlar;
- Loqo və Roll Up Bannerlər, katoloqlar hazırlanarkən izlənməsi lazım olan prosedurları və hazırlanarkən diqqət ediləcək ünsürləri bilməli, kompyuter qrafikasının növləri haqqında məlumatlı olmalıdırlar;
- Qrafik dizaynda mövcud olan üslubları tanımalı və trendə çevrilən cəhətlərin əhəmiyyətini dərk etməlidirlər;
- Qrafik dizayn sahəsinə istifadə olunan terminlərin mənasını anlamalıdırlar.

**Bacarmalıdırlar**:

- Peşşəkar qrafik proqram eskizlərin yerinə yetirilməsi üçün proqramlarını və qrafiktexnikadan istifadə üsullarını, qrafikanın spesifikasını mənimsəməlidirlər.
- Qrafik eskizlər (sketç-nabroskalar), yaradıcı eskizlər və işçi eskizləri, qrafik proqramlarda tətbiqetməyi, habelə qrafik proqramlarda yernə yetirmək təcrübəsini əldə etməlidirlər;
- Məhsulların çiziminin, loqoların və sadə ornamentləri, reklam afişasının dizaynınınhazırlanmasını bacarmalı;
- Roll up bannerlərin, saytların, reklamların tərtibatını - eskizlərdə, kompyuter texnikası və ya

digər rəqəmsal texniki vasitələrdə - verərkən, informasiyanın forma, rəng və digər qrafikelementlərlə vizual ötürülməsini tətbiq etməyi bacarmalıdırlar.

**Prerekvizitlər**

Yoxdur.

**Fənnin məşğələ mövzuları**

Fənnin tədrisi prosesində tələbələrə aşağıdakı mövzularda seminarlar təqdim ediləcək:

6. Giriş. Qrafik dizayn proqramları ilə tanışlıq. Adobe Photoshop tətbiqi proqram paketinin alətlər panelinin öyrənilməsi. Reklam dizaynının proqramda işlənilməsi.
7. Adobe Photoshop tətbiqi proqram paketində Flyerlərin(Əl elanları), Booklet hazırlanması.
8. Adobe Photoshop tətbiqi proqram paketində Posterlərin işlənilməsi.
9. Adobe Photoshop tətbiqi proqram paketində məhsulun Roll up hazırlanması.
10. Layihə işi.
11. Adobe İllustrator tətbiqi proqram paketinin alətlər panelinin öyrənilməsi. Reklam dizaynı və brendin proqramda işlənilməsi.
12. Adobe İllustrator tətbiqi proqram paketində məhsul qablaşdırmasının hazırlanması.
13. Adobe İllustrator tətbiqi proqram paketində logonun hazırlanması.
14. Adobe İllustrator tətbiqi proqram paketində sosial media postlarının hazırlanması.
15. Adobe İllustrator tətbiqi proqram paketində banner dizaynının hazırlanması.
16. Layihə işi.
17. Adobe InDesign tətbiqi proqram paketinin alətlər panelinin öyrənilməsi. Nəşr dizaynının proqramda işlənilməsi.
18. Adobe InDesign tətbiqi proqram paketində minimal kataloq səhifə dizaynının hazırlanması.
19. Adobe InDesign tətbiqi proqram paketində Jurnal Səhifə Dizaynının hazırlanması.
20. Adobe InDesign tətbiqi proqram paketində Qəzet Səhifə Dizaynının hazırlanması.
21. Layihə işi.
22. Portfolio.

**Fənnin Mühazirə mətnləri**

Qabiliyyət tələb edən fənn olduğu üçün mühazirə mətni nəzərdə tutulmayıb.

**Mövzuların məzmunu və tədris-tematik bölgü**

| s/s | Mövzuların adları | Mövzunun əsasməzmunu | saat |
|---|---|---|---|

| | | | |
|---|---|---|---|
| 1. | Giriş. Qrafik dizayn proqramları ilə tanışlıq. Adobe Photoshop tətbiqi proqram paketinin alətlər panelinin öyrənilməsi. Reklam dizaynının proqramda işlənilməsi. | - Qrafik dizayn proqramlarını;<br>-Adobe Photoshop tətbiqi proqram paketindən istifadə yollarını; | 4 |
| 2. | lobe Photoshop tətbiqi proqram paketində Flyerlərin(Əl elanları), Booklet hazırlanması. | -Reklam dizaynında təsirli flyer elementləri.<br>- Diqqət çəkici başlıqlar<br>-Vizual iyerarxiya<br>- Balans(mətn , qrafika, şəkillər və rənglər)<br>- Düzgün tipoqrafiya<br>- Flyer(əl elanları) ölçüləri və növləri | 4 |
| 3. | lobe Photoshop tətbiqi proqram paketində Posterlərin işlənilməsi. | -Brend şəxsiyyətinizə və posterinizdə reklam etdiyinizə uyğun gələn dizayn elementlərini (rənglər və şrift kimi)<br>- Poster dizaynında (və ümumiyyətlə dizayna)üslub<br>-Posterdə orijinallığı,rəngi,tipoqrafiyanı | 4 |

| | | | |
|---|---|---|---|
| | | | |
| 4. | Adobe Photoshop tətbiqi proqram paketində məhsulun Roll up hazırlanması. | - Roll up bannerlərin, saytların, reklamların tərtibatını - eskizlərdə, kompyuter texnikası və ya digər rəqəmsal texniki vasitələrdə - verərkən, informasiyanın forma, rəng və digər qrafik elementlərlə vizual ötürülməsini tətbiq etmək | 4 |
| 5. | Layihə işi. | -Rəqəmsal qrafik dizayna diqqət yetirməklə güclü nəzəri və praktiki biliklər<br>-Rəng, illüstrasiya, təsvirin manipulyasiyası və konsepsiyanın inkişafı kimi sahələrdə əsaslar | 2 |
| 6. | Adobe İllustrator tətbiqi proqram paketinin alətlər panelinin öyrənilməsi. Reklam dizaynı və brendin proqramda işlənilməsi. | -Branding: Anlayışlar, Son marka aspektləri, Case tədqiqatlar. Müxtəlif növ məruzələr. Sərin və isti kağız, keyfiyyətli və GSM çap kağızları- Çap formalarının müxtəlif növləri və bağlayıcılar. Müxtəlif çap məqsədləri və çap texnologiyaları üçün müvafiq məqalələrin seçilməsi.<br>-Brendin vizual aləti - unikal loqo. Müxtəlif növ loqotiplər, beyin fırtınası, ağıl tutmaları, əhval lövhəsi. Logo dizaynı: Əsaslar və proses. Kimlik əl dəyişmələri və loqotipin təkamülü, korporativ rənglər.<br>-Brendin reklam dizaynları. Spot rəng, dizayn dominant vizual rəng, stasionar (vizit kartı, Letterhead, zərf) broşura və müxtəlif qatlama üsulları. News reklam, poster, hoarding, böyük standee, masa standee, pamflet, flyer.<br>-Dizaynın vizuallaşdırılması, əl işi Prototip, mənfi məkanın əhəmiyyəti. Dummy brendinq üçün dizayn edir. Brendinqin etikası. | 4 |

| | | | |
|---|---|---|---|
| | | | |
| 7. | Adobe İllustrator tətbiqi proqram paketində məhsul qablaşdırmasının hazırlanması. | -Praktik istifadə<br>-Brend sadiqliyi<br>-əsas məqsəd çox aydın görünə bilsin(həddindən artıq məlumat, yazılı mətn və ya qeyri-müəyyən vizuallarla) | 4 |
| 8. | Adobe İllustrator tətbiqi proqram paketində logonun hazırlanması. | -Şrift və ya Şrift Seçimi<br>-Yazı tipinin seçilməsi<br>-Kern və intervalın tənzimlənməsi<br>-Rəng seçimi | 4 |
| 9. | Adobe İllustrator tətbiqi proqram paketində sosial media postlarının hazırlanması. | -Tipoqrafiya – tip, şriftlər, hərf formaları və tiplə dizayn<br>-Brend Kimliyinin İnkişafı və Tətbiqi - Loqolar, mediada ardıcıl görünüş yaratmaq | 4 |
| 10. | Adobe İllustrator tətbiqi proqram paketində banner dizaynının hazırlanması. | -Reklam banneri üçün müəyyən bir hədəf auditoriyaya yönəltmək.<br>- Kampaniya üçün daha yaxşı nəticə. | 4 |
| 11. | Layihə işi. | -Rəqəmsal qrafik dizayna diqqət yetirməklə güclü nəzəri və praktiki biliklər<br>-Rəng, illüstrasiya, təsvirin manipulyasiyası və konsepsiyanın inkişafı kimi sahələrdə əsasları | 2 |
| 12. | lobe InDesign tətbiqi proqram paketinin alətlər panelinin öyrənilməsi. Nəşr dizaynının proqramda işlənilməsi. | InDesign ən müasir qrafik formatlarını (həm vektor, həm də raster) dəstəkləyir, buna görə proqramda parlaq təsvirli çap yaratmağı və nəşr dizaynı əhatə edir. | 4 |

| | | | |
|---|---|---|---|
| 13. | Adobe InDesign tətbiqi proqram paketində minimal kataloq səhifə dizaynının hazırlanması. | Kataloqun reklam siferası üçün önəmi. Adobe InDesign tətbiqi proqramında alətlərin köməyi ilə hazırlanması | 4 |
| 14. | Adobe InDesign tətbiqi proqram paketində Jurnal Səhifə Dizaynının hazırlanması. | Reklamın önəmi danılmaz faktortur.Jurnalların daha çox oxunmağı üçün Adobe İndesign vasitəylə dizaynının hazırlanması | 4 |
| 15. | Adobe InDesign tətbiqi proqram paketində Qəzet Səhifə Dizaynının hazırlanması. | InDesign, sənəddə yenidən istifadə edilə bilən mətn üslublarını və paraqraf üslublarını təyin etməyə imkan verir. Bu, səhifələrinizdəki ümumi elementlərin görünüşünü asanlıqla müəyyənləşdirməyə və sənəd boyunca üslubların vahidliyini təmin etməyi | 4 |
| 16. | Layihə işi. | -Rəqəmsal qrafik dizayna diqqət yetirməklə güclü nəzəri və praktiki biliklər<br>-Rəng, illüstrasiya, təsvirin manipulyasiyası və konsepsiyanın inkişafı kimi sahələrdə əsasları | 2 |
| 17. | Portfolio. | -Dizayn elementlərini anlayın və bir dizayner kimi bacarıqların artırılması. | 2 |

**Cari qiymətləndirmə**

Dizayn ixtisasıda ***qabiliyyət tələb edən fənlər*** üzrə cari qiymətləndirmədə - 50 balın 20 balı tələbələrin aktivlik balı (seminar məşğələləri zamanı tapşırıqların icrası əsasında müəyyən edilir) hesabına formalaşdırılır. Qalan 30 bal isə semestr ərzində (hər ay ərzində 2 iş olmaqla) üzrə Əlavədə qeyd olunan qaydada yerinə yetirilən və hər biri 5 balla qiymətləndirilən 6 fərdi işin qiymətləndirilməsi əsasında təmin edilir. Bu halda əlavə bal almaq istəyən tələbələr tərəfindən 7-ci fərdi işin təqdim edilməsinə icazə verilmir.

Qabiliyyət tələb edən fənlər (dizayn ixtisasında) üzrə fərdi iştapşırıqlarının yerinə yetirilməsi Tələbələrə sillabus üzrə mövzulara uyğun olaraq 6 fərdi iş tapşırığı verilir. Verilən tapşırıqların
işləmə qaydaları aşağıdakı kimi müəyyən edilir:

1. Kompanovka - əşyaların və yaxud kompozisiyanın vərəqdə düzgün yerləşdirilməklə çəkilməsi.
2. Proporsiyaların düzgün təyin edilməsi.
3. Köməkçi xətlərdən istifadə edərək formanın qurulması.
4. Perspektiva qanunlarına uyğun tapşırığın konstruktiv həlli.
5. Kompozisiya qanunlarına riayət edərək tapşırığın tam olaraq konstruktiv həlli.
6. Rəng palitrasının müəyyənləşdirilməsi.
7. Predmetlərin formasının, həcminin və yaxud hər hansı bir kompozisiyanın rənglə işlənməsi:

7.1. Natürmortun rəng həlli:

7.1.1. Əsas rəng tonlarının verilməsi;

7.1.2. Şəxsi və düşən kölgələrin verilməsi;

7.1.3. Predmetlərin formasının işıq-kölgə və rənglə modelləşdirilməsi;

7.1.4. Predmetlərin rənglə fakturasının verilməsi;

7.1.5. Fəzanın rənglə işlənilməsi;

7.1.6. Natürmortun ümumiləşdirilməsi;

7.2. Kompozisiyanın (ornamental, tematik, qrafik, dekorativ və s.) rəng həlli:

7.2.1. Əsas rəng tonlarının verilməsi;

7.2.2. Ornamental kompozisiyaların tapşırıqdan asılı olaraq simmetriyaqanunlarına riayət edərəkxromatik və yaxud axromatk çalarlarla işlənilməsi;

7.2.3. Dekorativ tapşırıqların xromatik çalarlarla işlənilməsi və kontur xətlərin vurğulayaraqverilməsi;

7.2.4. Qrafik işlərin xromatik və yaxud axromatk çalarlarla qrafik üslubda işlənilməsi və konturxətlərin vurğulayaraq verilməsi;

7.2.5. Tematik tapşırıqların qrizayl (monoxrom) və yaxud xromatik çalarlarla işlənilməsi;

7.2.6. Tapşırığın ümumiləşdirilməsi.

Tapşırıqların yerinə yetirilməsində istifadə olunan material və texnikalar:

1. A3, A2 formatında kağız və yaxud kətan.
2. Sadə qələm, rəngli qələm, rəngli gel qələm, flomaster, rəngli marker, pastel, kömür, sangina,sulu (akvarel, akril, quaş və s.) boya, yağlı boya.

Qarışıq texnikadan istifadə etməyə icazə verilir.

**Fənn üzrə kurs işi**

**Fənn üzrə kurs işi nəzərdə tutulmayıb**

**Dərsə davamiyyət**

Bakalavriat səviyyələri üzrə təhsilalanlara 75%-lik davamiyyət limiti tətbiq edilir. Fənn üzrə bu həddi aşanlar həmin fənn üzrə aralıq qiymətləndirməyə (sessiya imtahanına) buraxılmır. Davamiyyət limitini aşmayan əyani təhsilalanlar üçün həmin fənn üzrə davamiyyətə görə bal verilmir.

**Aralıq qiymətləndirilmə**

Fənnin tədrisinin sonunda bir dəfə yekun imtahan təşkil olunur. Tələbənin imtahandakı cavabı 0-50 bal aralığında (maksimum 50 bal) qiymətləndirilə bilər Fənnin tədrisi prosesində tələbənin əldə etdiyi bilik və bacarıqları Aralıq qiymətləndirmə üzrə 50 bal qabiliyyət imtahanı kimi 180 dəqiqə ərzində keçirilən sessiya imtahanın zamanı proqramlarla işlənilən PDF,JPG və ya digər formatlarda işlənən qrafik təsvirin qiymətləndirilməsi hesabına təmin edilir.

İmtahan nəticələri sistemə aidiyyəti kafedra tərəfindən daxil edilir. Tələbə iştirak etmədikdə "0"(sıfır) bal qeyd olunur. Yekun imtahanda tələbə minimum 17 bal toplamazsa, onda imtahana qədər yığılan ballar toplanmır, tələbə bu fəndən krediti qazanmır və onun fənn üzrə akademik borcu qalır. İmtahanın nəticələrinin qiymətləndirilməsi ilə bağlı tələbənin hər-hansı şikayəti olarsa, tələbə Universitetdə müəyyən olunmuş ümumi qaydalar əsasında Apellyasiya
komissiyasına müraciət edə bilər.

**Fənn üzrə yekun qiymətləndirmə**

Fənn üzrə tələbələrin yekun biliyi 100 ballıq sistem üzrə qiymətləndirirlir. Ballarınmaksimum miqdarı - 100 baldır.

Yekun imtahandan sonra tələbənin fənn üzrə topladığı bütün ballar toplanır və yekun qiymət(bal) hesablanır.

| **İstiqamət** | **Ballar** | **Faiz** |
|---|---|---|
| Aralıq qiymətləndirmə (final) | 50 | 50 % |
| Seminar (məşğələ) dərslərin nəticələrinə görə aktivlik | 20 | 20 % |
| Tələbələrin fərdi işin qiymətləndirilməsinə görə | 30 | 30% |
| **Cəmi:** | **100** | **100 %** |

Fənn üzrə semestr ərzində (imtahana qədər və imtahanda) tələbənin topladığı balın yekunmiqdarına görə onun yekun biliyi aşağıdakı kimi qiymətləndirilir:

| | | |
|---|---|---|
| 51 baldan aşağı olduqda | - "qeyri-kafi" | – **F** |
| 51-60 bal | - "qənaətbəxş" | – **E** |
| 61-70 bal | - "kafi" | – **D** |
| 71-80 bal | - "yaxşı" | – **C** |
| 81-90 bal | - "çox yaxşı" | – **B** |
| 91-100 bal | - "əla" | – **A** |

Tələbənin topladığı yekun bal 51 baldan aşağı olduqda (yəni onun biliyi "qeyri-kafi" qiymətləndirildikdə) tələbə bu fəndən krediti qazanmır və onun fənn üzrə akademik borcu qalır.